السنّة النبوية وعلومها
www.sunnah.global

# Zülhiccənin ilk on günündə

İbn Abbasdan (Allah onların ikisindən də razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Zülhiccənin ilk on günündə edilən saleh əməl kimi Allaha ən sevimli olan başqa günlər yoxdur". Dedilər: "Ey Allahın Rəsulu, Allah yolunda cihad belə?". Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "Allah yolunda savaş belə.Yalnız öz canı və malıyla döyüşə çıxıb və şəhid olub geri dönməyən kimsə istisnadır".

[Səhih] [Əl-Buxari, Əbu Davud onun ləfziylə]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, zülhiccənin ilk on günündə edilən saleh əməllər ilin digər günlərindən daha xeyirlidir. Bu zaman sahabələr (Allah onlardan razı olsun) Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) qeyd edilən on gündən savayı digər günlərdə Allah yolunda cihadınmı yoxsa sözügedən on gündə saleh əməllərin üstün olması barədə soruşur. Çünki cihadın, əməllərin ən fəzilətli olması onlarda bilinən bir məsələ idi. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) cavab verir ki, həmin günlərdə edilən saleh əməllər, digər günlərdəki edilən cihaddan fəzilətlidir. Yalnız o kəsdən başqa ki, cihada çıxıb, özünü və sərvətini Allah yolunda təhlükəyə atar, mal-dövlətini və həyatını Allah yolunda itirər. Yalnız sözügedən əməl həmin fəzilətli günlərdəki saleh əməllərdən üstündür.

https://www.sunnah.global/hadeeth/az/show/6255

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee